# İSLAMIN İNSANA VERDİYİ DƏYƏR

*"Biz, Adəm oğullarını hörmətli etdik" (İsra, 70)*

| | |
|---|---|
| **Kitabın əsli:** | **Təkrim ul-isləmi lil-insən** |
| **Kitabın adı:** | **İslamın insana verdiyi dəyər** |
| **Müəllif:** | **Doktor Abdulkərim Əl-Amri** |
| **Tərcümə edən:** | **Səid Ələkbərov** |
| **Redaktə edən:** | **Xumar Ərşadlı** |
| **Tarix:** | **22. 10. 2021** |

## Bismilləhir-Rahmənir-Rahim

*Aləmlərin Rəbbi olan Allaha həmd olsun. Əvvəlkilərin və sonrakıların seyyidi olan peyğəmbərimiz Muhəmmədə ﷺ , ailəsinə və bütün səhabələrinə salavat və salam olsun.*

Allah Təala insanı bu geniş aləmdəki bütün varlıqlardan üstün olaraq xəlq etmiş, ona iti ağıl və dərin hisslər vermişdir. Yaradılmışların zirvəsində olması üçün insanın məqamını üstün edən Allah, onu uğur qazanmağa, quruculuğa və islahatlara, həyatın bütün sahələrində digər insanlarla yardımlaşmağa hazır şəkildə yaratmışdır.

Uca Allah buyurur:

وَلَقَدْ كَرَّمْنَا بَنِىٓ ءَادَمَ وَحَمَلْنَٰهُمْ فِى ٱلْبَرِّ وَٱلْبَحْرِ وَرَزَقْنَٰهُم مِّنَ ٱلطَّيِّبَٰتِ وَفَضَّلْنَٰهُمْ عَلَىٰ كَثِيرٍ مِّمَّنْ خَلَقْنَا تَفْضِيلًا

***“Biz, Adəm oğullarını hörmətli etdik, onları quruda və dənizdə minik üstündə daşıdıq, onlara***

***pak ruzilər verdik və onları yaratdıqlarımızın çoxundan xeyli üstün elədik”[1].***

İslam dini insanın məqamını vurğulamış, onun dəyərli bir varlıq olduğunu bəyan etmişdir. İnsan alçaldılmaq və rüsvay edilmək üçün deyil, əksinə ehtiram və sayğı göstərilmək üçün yaradılmışdır. İslam dinində olan hər bir tövsiyyə, əhkam, əmr və qadağalar mükafat və cəza xarakterlidir. Bu əmr və qadağalar yalnız insanın öz xeyri, faydalanması, xoşbəxtliyi, hidayəti və doğru yolu tutması üçün müəyyən olunmuşdur. Əmr və qadağalarda məqsəd insana zülm olunması və ya şiddət göstərilməsi, yaxud da sıxıntıya və məşəqqətə salınması deyil. Allah Təala buyurur:

وَمَا خَلَقْنَا ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضَ وَمَا بَيْنَهُمَا لَٰعِبِينَ

مَا خَلَقْنَٰهُمَآ إِلَّا بِٱلْحَقِّ وَلَٰكِنَّ أَكْثَرَهُمْ لَا يَعْلَمُونَ

[1] “İsra”, 70

***“Biz göyü, yeri və onların arasında olanları əyləncə üçün və əbəs yerə yaratmadıq”.***

***“Biz onları əsl həqiqət kimi yaratdıq, lakin çoxları bunu bilmir”.***[2]

Allah Azzə və Cəllə başqa bir ayədə buyurur:

مَا يُرِيدُ ٱللَّهُ لِيَجْعَلَ عَلَيْكُم مِّنْ حَرَجٍ وَلَٰكِن يُرِيدُ لِيُطَهِّرَكُمْ وَلِيُتِمَّ نِعْمَتَهُۥ عَلَيْكُمْ لَعَلَّكُمْ تَشْكُرُونَ

***“Allah sizi çətinliyə salmaq istəməz, lakin O, sizi pak etmək və sizə olan nemətini tamamlamaq istər ki, bəlkə şükür edəsiniz”***[3]**.**

İslam dini, onun əhkam və qayda-qanunları hörmətli olan insanı himayə etmək və Allahın ona verdiyi nemətləri qorumaq üçün gəlmişdir. İnsan, Allahın onu yaratdığı sağlam bir fitrətlə fəzilətləndirilmiş və ona yüksək dəyər verilmişdir. Adəm övladı bu sağlam fitrət üzərində qalmazsa və fitrətini zərərlərdən qorumazsa, o zaman fitrət korlanar və

---

[2] “Duxan”, 38-39

[3] “Maidə”, 6

zərərə uğrayaraq ən aşağı dərəcəyə enər. Allah Təala buyurur:

لَقَدْ خَلَقْنَا ٱلْإِنسَٰنَ فِىٓ أَحْسَنِ تَقْوِيمٍ

ثُمَّ رَدَدْنَٰهُ أَسْفَلَ سَٰفِلِينَ

إِلَّا ٱلَّذِينَ ءَامَنُوا۟ وَعَمِلُوا۟ ٱلصَّٰلِحَٰتِ فَلَهُمْ أَجْرٌ غَيْرُ مَمْنُونٍ

***“Biz insanı ən gözəl surətdə yaratdıq! Sonra isə onu aşağı qatların ən aşağısına (Cəhənnəmin dibinə) qaxacağıq. İman gətirib xeyirxah işlər görənlər istisna olmaqla! Onlar üçün tükənməz mükafat hazırlanmışdır”[4].***

Həqiqətən, Allah Təala insanı gözəl surətdə və görünüşdə yaratmış, yaratdığına güclü idrak və istək vermişdir. Onu digər məxluqlardan dəyərli etmiş və ona nemət ardınca nemət əta etmişdir. Peyğəmbərlərin göndərilməsi, kitabların nazil olunması, Peyğəmbərimizin ﷺ aləmlərə rəhmət olaraq göndərilməsində səbəb, insanın dünya və

[4] “Tin”, 4-6

Axirət səadətinin gerçəkləşməsidir. Allah Təala buyurur:

وَمَآ أَرْسَلْنَٰكَ إِلَّا رَحْمَةً لِّلْعَٰلَمِينَ

***“Səni də aləmlərə ancaq bir rəhmət olaraq göndərdik”*[5].**

*Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət olunan hədisdə Allah Rəsuluna belə deyildiyi nəql olunur: “Ey Allahın Rəsulu! Muşriklərin əleyhinə dua elə. Peyğəmbər ﷺ dedi: “Mən lənət etmək üçün göndərilmədim. Mən ancaq bir rəhmət olaraq göndərildim”*[6].

Başqa bir hədisdə Allah Rəsulu buyurur: “*Mən ancaq mərhəmətli və doğru yolu göstərənəm”*[7].

Səadətin və rəhmətin gerçəkləşdirilməsi, əsas haqq və hüquqların qorunması, insanlığın və onun

---

[5] “Ənbiya”, 107

[6] “Muslim”, 2599

[7] Əbu Hureyra (Allah ondan razı olsun) rəvayət etmişdir, şeyx əl-Albani səhihləşdirmişdir, “Səhihul-Cəmi”, 2345

kəramətinin qorunması deməkdir. Bunu da məhz İslam dini müəyyən etmişdir. Çünki İslam dinində insan haqları əqidənin bir parçasını təşkil edir. Bu haqlara riayət etmək ibadət sayılır və yerinə yetirildikdə savab, tərk edildikdə isə cəza gətirir.

İslam dinində insan haqları xoşagələn bir nəzəriyyə və ya humanist tövsiyyələr toplusu, yaxud da ümumi moizələrdən ibarət deyildir. Bu haqlar istədikdə riayət olunan, istənmədikdə isə tərk olunan məsələ deyil. İslam dini bu haqların qorunmasını şəriət şəklində müəyyən etmişdir. Şəriətin qoyduğu hədlərə etinasız yanaşana və bu hədləri aşana isə dində sərt cəzalar təyin olunmuşdur.

İslam dinində insan haqları iki əsas şəriət dəlilinə - Qurana və Peyğəmbərin ﷺ sünnəsinə əsaslanır. İslam dini həyatın bütün sahələrində insan haqlarının qorunmasını təmənni edir. Din çərçivəsində insan haqlarınının müəyyən olunması məhz bu səbəbdəndir. Bütün bunlar isə yalnız və yalnız

insanın kəraməti, şərəfləndirilməsi və təqdir olunması üçündür.

İnsan bu aləmdə ən dəyərli varlıqdır. İnsandan daha çox qorunmağa, diqqət göstərilməyə və kömək olunmağa haqlı və layiq olan məxluq yoxdur. Bu aləmdə mövcud olan hər bir şey insan üçün xəlq edilmişdir. İnsanı tək olan uca Allah yaratmışdır. Necə ki, Allah Azzə və Cəllə buyurur:

هُوَ ٱلَّذِى خَلَقَ لَكُم مَّا فِى ٱلْأَرْضِ جَمِيعًا

***"Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan Odur"[8].***

Allah Təala hər şeyi insan üçün hazırlamışdır. Onun istəklərini, hədəflərini, səmərələrini həyata keçirməsi, dünyanın hər tərəfinə səyahət etməsi və köç edə bilməsi üçün yer üzünü insana ram etmişdir.

Allah Təala buyurur:

[8]"Bəqərə", 29

هُوَ ٱلَّذِى جَعَلَ لَكُمُ ٱلْأَرْضَ ذَلُولًا فَٱمْشُوا۟ فِى مَنَاكِبِهَا وَكُلُوا۟ مِن رِّزْقِهِۦ ۖ وَإِلَيْهِ ٱلنُّشُورُ

***"Yeri sizin ixtiyarınıza verən Odur. Onun hər tərəfində gəzin və Allahın ruzisindən yeyin. Qayıdış da Onadır"[9].***

Uca Allah başqa bir ayədə buyurur:

أَلَمْ تَرَوْا۟ أَنَّ ٱللَّهَ سَخَّرَ لَكُم مَّا فِى ٱلسَّمَٰوَٰتِ وَمَا فِى ٱلْأَرْضِ وَأَسْبَغَ عَلَيْكُمْ نِعَمَهُۥ ظَٰهِرَةً وَبَاطِنَةً

***"Məgər Allahın göylərdə və yerdə olanları sizə ram etdiyini, Özünün aşkar və gizli nemətlərini sizə bol-bol verdiyini görmürsünüzmü?"[10].***

İslam dini müəyyən etdiyi qayda-qanunlarla insanı qoruyur, ona dəyər verməklə şanını yüksəldir. İnsanın imanı artdıqca, o, həlim bir müsəlmana çevrilir. Nəzakətli bir kəs heyvanların məqamına enməyə heç vaxt razı olmaz, özü kimi bir insanı alçaltmaz, özünü digər müsəlman qardaşlarından

---

[9] "Mülk", 15
[10] "Loğman", 20

üstün tutmaz və beləcə İslamın bütün insanlara bəxş etdiyi ləyaqətə hörmət haqqını puç etməz. İnsanın dəyəri İslam etiqadı və əxlaqı daxilində mövcud olan şəri bir nizamdır. Bu da yaradılmışların ən hörmətlisi olan insanın ən təbii haqqının qorunmasıdır. İnsan elə bir məxluqdur ki, uca Allah onu Öz əli ilə yaratmaqla şərəfləndirmişdir. Necə ki, Allah Azzə və Cəllə buyrur:

فَإِذَا سَوَّيْتُهُ وَنَفَخْتُ فِيهِ مِن رُّوحِى فَقَعُواْ لَهُ سَٰجِدِينَ

***“Mən ona surət verib ruhumdan üfürdüyüm zaman siz ona (ibadət yox, hörmət məqsədiylə) səcdə edin”[11].***

Allah Təalanın insana bəxş etdiyi ehtiram, sadəcə bəzi və müəyyən hallarda riayət olunan bir fəzilət deyil. Bu kəramət İslamın təməlidir və Qurani-Kərimdə nazil olmuş çoxsaylı ayələr də buna dəlildir.

---

[11] “Hicr”, 29

İslam, insanlar əhdnamə bağlamağa başlamazdan çox əvvəl insanlığa dəyər verən və onu qoruyan yeganə dindir. İnsan, həyatının bütün mərhələlərində - dünyaya gəlməzdən əvvəl, bütün həyatı boyunca və hətta vəfat etdikdən sonra da bu dəyərlə nemətləndirilmişdir. Allah Təala insana misilsiz bir dəyər verməklə onu digər məxluqlar arasından seçmişdir.

İnsanın üstünlüyü və məqamının yüksəkliyi bundan daha açıq-aydın bildirişlə və daha aşkar şəkildə bəyan oluna bilməzdi. Bəşər övladı, şüarı tövhid olan İslam dininin bəyanı ilə yüksəldilmişdir. İnsana bu uca məqamı başqa hansı din və ya fəlsəfə bəxş edir? Bu yüksək mənzil tarix boyunca bağlanmış hansı sözləşmə və yaxud təyin olunmuş hansı qanunla qazanıla bilər?

Allahın salavatı və salamı Peyğəmbərimiz Muhəmmədin ﷺ, ailəsinin, əshabının və onların ardınca gözəl şəkildə gedənlərin üzərinə olsun.